**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 261/6** **14 aprel 2015-ci il**

**2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının hazırlanması barədə**

Auditorlar Palatasının 2015-2017-ci il üzrə iş planının 4.1-ci “2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin hazırlanması” bəndinin icrası ilə əlaqədar, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov, E.Hacıyeva) və Auditorların ixtisasartırma komitəsi (A.Qurbanov) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış “2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı” barədə layihəni və Şura üzvlərinin təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış “2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı” təsdiq edilsin (əlavə olunur).
2. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, E.Hacıyeva) və Auditorların ixtisasartırma komitəsinə (A.Qurbanov) tapşırılsın ki, təsdiq olunmuş həmin sənədlər üzrə 2015-ci ildə auditorların, o cümlədən auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən xüsusi razılığı (lisenziyanı) müvəqqəti olaraq Palataya qaytaran şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəq vermiş və xüsusi razılığı (lisenziyanı) almamış şəxslərin Palata tərəfindən cari ildə keçiriləcək ixtisasartırma kurslarında iştirak etmələri ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi təmin edilsin.
3. Bu qərarın mətninin və “2015-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin” Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**